# Pedaqoji prosesdə tərbiyəçinin pedaqoji mərifəti onun pedaqoji ustalığının əsasını təşkil edir

**Pərvanə İmanova**
*ADPU-nun fəlsəfə doktoru proqramı üzrə dissertantı*
**E-mail:** imanova.pervane@bk.ru

**Rəyçilər:** p.ü.e.d., prof. M.İ. İlyasov,
p.ü.f.d., dos. Ş.A. Baxışova

**Açar sözlər:** məktəbəqədər yaşlı uşaqlar, məktəbəqədər dövr, pedaqoji proses, pedaqoji ustalıq, şəxsiyyət, prinsiplər, keyfiyyətin yüksəldilməsi, innovasiya, kompetensiya, vasitələr

**Ключевые слова:** дети дошкольного возраста, дошкольный период, педагогического процесса, педагогическое мастерство, личность, принципы, повышение, инновации, компетенция, средства

**Key words:** children of preschool age, preschool period, pedagogical process, the personality, the developing training, principles, pedagogical skill, improvement of quality, innovation, competence, means

Bu gün məktəbəqədər təhsil müəssisələrinin fəaliyyətinin yenidən formalaşdırılmasına iqtisadi, sosial-mədəni, normativ-hüquqi şərtlər kompleksi imkan yaradır. Bununla əlaqədar olaraq təhsil müəssisələrinin idarəetmə sistemi çərçivəsində cəmiyyətdə baş verənləri özündə əks etdirən yeni sistemin qurulması zəruridir. Mühit — zaman dəyişdikcə məktəbəqədər təhsilin də məzmununda köklü dəyişiliklərin edilməsi dövrümüzün tələbidir.

Uşaq şəxsiyyətinin formalaşması üçün təhsildə demokratikləşdirmə və humanistləşdirmə əsas şərtlərdən ibarətdir. Bunun əsas mahiyyətini isə təlim-tərbiyə işində qurucu, yaradıcı və dəyişdirici pedaqoji və sosial-mədəni əhəmiyyət daşıyan prinsiplər, başqa sözlə desək, düzgün səviyyəli aparılan pedaqoji proses təşkil edir.

Pedaqoji prosesdə tərbiyəçinin pedaqoji mərifəti daha çox tərbiyəçi-uşaq münasibətlərində özünü göstərir. Tərbiyəçinin pedaqoji mərifəti onun pedaqoji ustalığının əsasını təşkil edir. Tərbiyəçinin pedaqoji mərifətinin bəzi cəhətləri aşağıdakı kimi xarakterizə edilə bilər: Müşahidəçilik; diqqətlilik; hörmət və tələbkarlıq, qayğıkeşlik, inam; ədalətlilik; səbrlik; təmkinlik; şərəf və ləyaqəti qorumaq, gülərüz, mehriban ünsiyyətlilik, xoş rəftar, və s.

Məktəbəqədər təhsilin proqramının (kurikulumunun) tələblərinə görə pedaqoji prosesin mərkəzində dayanan tərbiyəçi və uşaqların funksiyaları dəyişir (1). Onların fəaliyyəti əvvəlcədən müəyyən olunmuş nəticələrə əsasən qurulur. "Tərbiyəçi-uşaq" cütlüyündə ünsiyyətin istənilən növü tərbiyəvi xarakter daşıyır. Lakin bu ünsiyyət o zaman daha yüksək nəticələrə səbəb olar ki, onun əsasında qarşılıqlı hörmət, humanist münasibət dayanmış olsun. Pedaqoji ünsiyyət mədəniyyəti tərbiyəçinin ünsiyyət üsullarına, texnikasına dərindən yiyələnməsi, pedaqoji ustalığının, pedaqoji yaradıcılığının nəticəsidir. Pedaqoji ustalıq pedaqoji prosesin uğurla həyata keçməsinin həlledici şərtlərindəndir.

Tərbiyəçi-uşaq ünsiyyəti tərbiyəçinin uşaqlarla yalnız biliyi və elmi ilə deyil, eyni zamanda baxışı, mimikası, səs tonu, emosiyaları, jestləri, zahiri görkəmi və şəxsi nümunəsi ilə əlaqədardır. Hər bir uşaq bənzərsiz psixi və geneloji fərdiliyə malikdir, müxtəlif ailələrin xüsusiyyətlərini özündə birləşdirir. Tərbiyəçinin ünsiyyət prosesində bunları hökmən nəzərə alması zəruridir. Pedaqoji ünsiyyətdə uşaqların şəxsiyyət kimi qəbul edilməsi, onların

hərtərəfli inkişaf etdirilməsi üçün öyrədici və inkişafetdirici təlim mühitinin yaradılması, tərbiyəçinin təlim fəaliyyətinin əsas tərkib hissələrini mənimsəməkdə uşağa kömək etməsi, eyni zamanda özünün biliklərin əldə edilməsinə və tətbiqinə dair zəruri əqli üsul və vasitələrə praktik cəhətdən yiyələnməsi böyük rol oynayır. Azərbaycan məktəb və pedaqoji fikir tarixinin görkəmli nümayəndələrindən biri olan Firidun bəy Köçərli yazır ki, "Müəllim məktəbin canı və camaatın çırağıdır. O, öz peşəsini sevməli, şagirdlərini övladı kimi istəməli, xeyir verən biliklər aşılamaqla əhalinin rəğbət və məhəbbətini qazanmalıdır" (5).

Pedaqoji prosesdə tərbiyəçi uşaqların fiziki, psixi, intellektual, sosial, emosional və yaradıcı inkişafı üçün təlim mühiti yaradır. Bu baxımdan təhlükəsiz və həvəsləndirici mühiti formalaşdırmaqla müstəqil və qrup tədqiqatları, oyun, müxtəlif vasitələr, uşaqların yaşıdları və böyüklərlə qarşılıqlı əlaqəsində inkişafını dəstəkləyir. Uşaqyönlülük-inkişafetdirici mühitdə tərbiyəçi uşaqların irəli sürdükləri fikirlərə, təşəbbüslərə hörmət və diqqətlə yanaşır, uşaqlara nəyi, necə və kiminlə öyrənmək və oynamaq istədiklərinə imkan yaradır. Yəni hər bir tərbiyəçi uşaqların marağını təlim prosesinə cəlb etməyə, məşğələ zamanı onların daha fəal olmalarına və bilikləri asanlıqla mənimsəmələrinə çalışmalı, uşaqları maraqlandıran hər bir sualı səbirlə, aydın və düzgün şəkildə cavablandırmalı, problemli situasiya yarandıqda onun həlli yollarının uşaqlar tərəfindən müstəqil şəkildə axtarıb-tapılmasına nail olmalıdır. Məşhur alman pedaqoqu A.Disterveq deyirdi ki, yaxşı dərs deyən müəllim, yaxşı da tərbiyə edir. O, müəllimi bütün maşını hərəkətə gətirən qüvvənin mənbəyi hesab edir və deyirdi ki, müəllim bu maşına can və hərəkət verməyi bacarmalıdır.

Məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin təşkili zamanı təlim-tərbiyə işi elə qurulur ki, təlim daha çox uşaqların fəallığına əsaslandırılır. Tərbiyəçilər isə həmin fəallığı istiqamətləndirir. Təlimin keyfiyyətinin yüksəldilməsi uşaqlara daha çox müstəqillik verir, öz fikirlərini sərbəst, çəkinmədən söyləməyə, arzu və istəklərinə müvafiq məşğuliyyət seçməyə imkan yaradır. Həmçinin pedaqoji prosesdə uşaqların təlim yükünün düzgün müəyyənləşdirilməsi mühüm məsələdir.

Təhsilin yeniləşməsi məktəbəqədər təhsil müəssisələrinin tərbiyəçilərindən bu sistemdə baş verən innovasion dəyişikliklərin tendensiyalarını (cərəyanlarını) bilməsini tələb edir. Müasir pedaqoji təhsilin məqsədi informasiya, innovasiya cəmiyyətinin tələblərinə uyğun yeni formatlı müəllim kadrları hazırlamaqdır. Məlumdur ki, məktəbəqədər təhsil sahəsində islahatların həyata keçirildiyi hazırki şəraitdə pedaqoji kadrlara, xüsusən tərbiyəçilərə olan tələbatlar da dəyişir.

Didaktik prosesin təkmilləşdirilməsinə istiqamətlənmiş innovasion fəaliyyət məktəbəqədər təhsil müəssisələrində tam innovasion sistemin komponentidir. Burada onun inkişafetdirici potensialını həyata keçirmək üçün təlim-tərbiyə işinin yüksəldilməsinə təsir göstərən məqsədlərin, məzmunun, formaların və metodların dəyişdirilməsi tələb olunur.

Tərbiyəçinin innovasion fəaliyyətinin spesifikliyi uşaqların idrak fəaliyyətini, fikri qabiliyyətlərini, həmçinin oyun fəaliyyətini innovasion fəaliyyətin məqsədinə, formalarına və metodlarına yönəltməsi ilə müəyyən olunur.

Məktəbəqədər təhsilin məzmununun yeniləşməsi, onun hər şeydən əvvəl keyfiyyətinin yüksəlməsinə xidmət edir. Təhsil o zaman keyfiyyətli olur ki, tədris prosesinə istiqamət verən və onu inkişaf etdirən tərbiyəçilərin bilikləri kifayət qədər təkmilləşdirilmiş və yeniləşdirilmiş olsun, müasir tələblərə cavab versin. Əgər əvvəllər tərbiyəçi əsas informasiya mənbəyi idisə, indi vəziyyət dəyişmişdir. İndi tərbiyəçi informasiya mənbələri ilə uşaq arasında vasitəçi funksiyasını yerinə yetirir. O, uşağa müxtəlif təyinatlı informasiya mənbələri ilə səmərəli iş metodlarını, informasiya proseslərini öyrətməlidir.

Müasir tərbiyəçinin əsas funksiyası uşağa öyrənməyi öyrətməkdir. Bunun üçün tərbiyəçi özü daim inkişafda olmalıdır. Tərbiyəçi pedaqoji prosesdə həlledici qüvvə kimi çıxış edir. Şəxsiyyətin ahəngdar inkişafı vəzifəsi, ilk növbədə, tərbiyəçinin üzərinə düşür. Tərbiyəçi, təlim verən insan bu inkişaf prosesində insanın tamlığını, bütövlüyünü yüksək əqli, əxlaqi, mənəvi keyfiyyətlər daşıyıcısı olmasını həyata keçirir. İnsanın kamillik keyfiyyəti gözəl düşüncəyə, gözəl sözə, əmələ malik olması ilə dəyərləndirilir. Düşüncə ideyalar ifadə edir, əməl isə praktik işlər həyata keçirir. Deməli, müasirlərimiz olan gənc nəsildə məntiqi yaradıcı təfəkkürü, ünsiyyət mədəniyyətini formalaşdırmaq, onları praktik fəaliyyətdə real olaraq hazırlamaq üçün istifadə etdiyimiz yeni metod və texnologiyaların məqsədini klassik pedaqoji irsimizə söykənərək cilalamalı, bununla kamil insan, fəal vətəndaş yetişməsinə şərait yaratmalıyıq.

Uşaqların təlim-tərbiyəsi ilə məşğul olmaq və onları şəxsiyyət kimi formalaşdırmaq tərbiyəçinin ən ümdə vəzifələrindəndir. Bunun üçün tərbiyəçi uşağın daxili dünyasını, arzu və istəyini, maraq və meyllərini, ehtiyacını, problemlərini, sevinc və kədərinə səbəb olan şeyləri öyrənməlidir. Yəni tərbiyəçi uşağı müəyyən istiqamətdə dəyişdirməli, inkişaf etdirməlidir.

Təlimin yeni şəraiti tərbiyəçidən hər bir məsələ üzrə fikir söyləmək istəyənləri dinləmək bacarığı, cavabların heç birini rədd etməməyi, uşaqların hər birinin mövqeyini dəstəkləməyi, mühakimələrin məntiqini başa düşməyi, tez-tez dəyişən situasiyalarda çıxış yolu tapmağı, cavabları, təklifləri təhlil etməyi və uşaqlara hiss etdirmədən onları problemin həllinə yönəltməyi bacarmalıdır.

V.A.Suxomlinski yazırdı: «Məktəbdə, kollektivdə özünü heç bir şeylə göstərə bilməyən, başqa sözlə, göstərmək istəməyən şagird ən çətin şagirdlərdən hesab olunmalıdır. Çünki müəllim belə şagirdin nə ilə maraqlandığını, nəyə meyl etdiyini öyrənməkdə çətinlik çəkir. Şagirdin qəlbi bağlı, qaranlıq qalır. Belə şagirdlər, adətən, kollektivdən kənarda qalır, heç vaxt öz «MƏN»ini irəli sürmür» (7, s. 44). Tərbiyəçinin pedaqoji ustalığı, hər şeydən əvvəl təlim-tərbiyə prosesini təşkil etmək bacarığındadır. Tərbiyəçinin ustalığı öyrənmək bacarığını uşaqlara öyrətməkdə özünü göstərir. Ustalığın mühüm göstəricilərindən biri uşaqları fəallaşdırmaq, onların qabiliyyətini, müstəqilliyini inkişaf etdirmək bacarığıdır. Usta müəllim təlim prosesini fəallaşdırmaq üçün müxtəlif metodlardan istifadə etməklə məşğələdə uşaqları düşünməyə məcbur etməyi bacarmalıdır.

Tərbiyəçinin pedaqoji fəaliyyətdə uğur qazanması üçün aşağıdakı başlıca amillərini bilməsi məqsədəmüvafiqdir:

— uşaqlarla qarşılıqlı ünsiyyət qura bilmək;
— uşaqlara hörmətlə yanaşmaq;
— təfəkkürün çevikliyinə malik olmaq;
— uşaq şəxsiyyətinə hörmət etmək;
— təlim-tərbiyə işini düzgün qurmaq;
— məşğələdənkənar tədbirləri təşkil edərkən uşaq şəxsiyyətinin inkişafına çalışmaq və s.

Kiçikyaşlı uşaqların kollektivə, təlim fəaliyyətinə, yaşıdlarına, tərbiyəçiyə, bir sözlə, məktəbəqədər müəssisə həyatına uyğunlaşması mürəkkəb, bir-birinə sıx bağlı olan amillərdən asılıdır. Məhz uşaqların kollektivdə özünütəsdiqindən asılı olaraq onların şəxsi keyfiyyətləri formalaşır.

Təlim-tərbiyə işinin səmərəliliyi xeyli dərəcədə tərbiyəçi-uşaq ünsiyyətindən: pedaqoji əməkdaşlığın səviyyəsindən asılıdır. Ənənəvi pedaqogikada tərbiyəçi-uşaq ünsiyyəti subyekt-obyekt münasibətləri çərçivəsində qurulurdu. Yəni tərbiyəçi yalnız göstərişlərini verir, uşaq isə onun göstərişlərini sözsüz yerinə yetirirdi. Təhsilin humanistləşdirilməsi, təlim-tərbiyənin

demokratik əsaslar üzərində qurulması tərbiyəçi-uşaq münasibətlərinin də yeni zəmində - yəni subyekt-subyekt münasibətləri zəminində qurulmasını tələb edir. Yəni bu gün tərbiyəçi və uşaq pedaqoji prosesin mərkəzində dayanan bərabər hüquqlu qüvvələrdir, tərəf müqabilləridir.

Deyilənlərdən belə qənaət hasil olur ki, tərbiyəçinin pedaqoji mərifəti onun pedaqoji ustalığının əsasını təşkil edir кi, tərbiyəçi-uşaq münasibətlərinin uğuru bir çox cəhətdən bundan asılıdır. Pedaqoji ustalıqdan, pedaqoji mərifətdən danışarkən, hər şeydən əvvəl uşaqlara yanaşmaq, onlarla ünsiyyət qurmaq bacarığına malik olmaq lazımdır. Şəxsiyyətin formalaşmasına fəal təsir göstərən amillərdən biri də ünsiyyətdir. Yetişməkdə olan uşağın şəxsiyyətinin formalaşmasında bir çox digər psixoloji törəmələr kimi ünsiyyət tələbatı da aparıcı rola malikdir. Yaxşı ünsiyyət mühiti və tərəfdaş insanın fəallığını artırır, əhvalında gümrahlıq yaradır, hisslərini və zövqünü cilalayır.

**Məqalənin aktuallığı.** Pedaqoji ustalıq pedaqoji prosesin uğurla həyata keçməsinin həlledici şərtlərindəndir. Pedaqoji ustalıqdan, pedaqoji mərifətdən danışarkən, hər şeydən əvvəl uşaqlara yanaşmaq, onlarla ünsiyyət qurmaq bacarığına malik olmaq lazımdır.

**Məqalənin elmi yeniliyi.** Təhsilin yeniləşməsi məktəbəqədər təhsil müəssisələrinin tərbiyəçilərindən bu sistemdə baş verən innovasion dəyişikliklərin tendensiyalarını (cərəyanlarını) bilməsini tələb edir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən məktəbəqədər təhsil müəssisələrində çalışan mütəxəssislər faydalana bilərlər.

## Ədəbiyyat


1. Azərbaycan respublikasında məktəbəqədər təhsil proqramı (kurikulumu). Bakı: ARTPİ-nin Təhsil Texnologiyaları Mərkəzi, 2014.
2. Ağayev Ə.Ə. Pedaqoji innovasiyalar probleminə müasir yanaşmalar. //Azərbaycan məktəbi, 2013, № 6.
3. İlyasov M.İ. Müəllimin pedaqoji ustalığı. Dərs vəsaiti. Bakı: Elm və təhsil, 2013.
4. Əhmədov A., Abbasov Ə. Məktəbəqədər təhsilin konseptual problemləri. // Kurikulum, 2011, № 2.
5. Köçərli Firidun bəy. Azərbaycan ədəbiyyatı. II cild, I c. Bakı: Elm, 1981.
6. Kərimov Y. Dərsin təkmilləşdirilməsi istiqamətləri //Azərbaycan məktəbi, 1998, № 5.
7. Сухомлинский В.А. Павлышская средняя школа. М.: Просвещение, 1979.


**П. Иманова**

## Педагогические навыки учителя имеют решающее значение для успеха педагогического процесса

## Резюме

Репетитор выступает в качестве решающей силы в педагогическом процессе. Задача гармоничного развития личности, прежде всего, ложится на педагога. Педагог-стажер осознает целостность и целостность человека в этом процессе развития как носителя высоких интеллектуальных, моральных и духовных качеств.

**P. Imanova**

## Teacher's pedagogical skills are critical to the success of the pedagogical process

## Summary

The tutor acts as a decisive force in the pedagogical process. The duty of harmonious development of personality, first of all, lies with the tutor. The educator, the trainee, realizes the integrity and integrity of man in this process of development as a carrier of high intellectual, moral and spiritual qualities.

**Redaksiyaya daxil olub:** 19.04.2019